# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 377 Bakı şəhəri, 30 sentyabr 2022-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydalarının təsdiq edilməsi haqqında" 1999-cu il 15 oktyabr tarixli 166 nömrəli və "Coğrafi göstəricini qeydə almaq üçün iddia sənədinin verilməsi və ekspertizası Qaydalarının təsdiq edilməsi haqqında" 2000-ci il 11 sentyabr tarixli 166 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

"Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 527-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1374 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 iyul tarixli 1733 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 oktyabr tarixli 166 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 600; 2004, № 3, maddə 193, № 9, maddə 742; 2006, № 5, maddə 463; 2009, № 1, maddə 32, № 9, maddə 752; 2012, № 9, maddə 924, № 11, maddə 1209; 2014, № 7, maddə 899; 2018, № 12 (II kitab), maddə 2735; 2019, № 12, maddə 2097; 2020, № 10, maddə 1310) ilə təsdiq edilmiş "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 14.4-cü bənd əlavə edilsin:

"14.4. İddia olunan əmtəə nişanının adında "Şuşa" sözündən ("Şuşa" sözü olan söz birləşməsindən) istifadə olunduqda, bu barədə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin razılığı barədə sənəd əlavə olunur.";

1.2. 23.2-ci bəndin "i)" abzasında "14.1, 14.2, 14.3-cü" sözləri "14.1-14.4-cü" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 166 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 692; 2002, № 3, maddə 148; 2004, № 3, maddə 193; 2009, № 1, maddə 32, № 9, maddə 752; 2012, № 9, maddə 923, № 11, maddə 1210; 2014, № 7, maddə 900; 2018, № 12 (II kitab), maddə 2735; 2019, № 12, maddə 2097) ilə təsdiq edilmiş "Coğrafi göstəricini qeydə almaq üçün iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndin altıncı-on ikinci abzasları müvafiq olaraq yeddinci-on üçüncü abzaslar hesab edilsin və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"Coğrafi göstəricinin adında "Şuşa" sözündən ("Şuşa" sözü olan söz birləşməsindən)" istifadəyə yalnız Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin razılığı ilə yol verilir.";

2.2. 7.5-ci bəndə aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"Coğrafi göstəricinin adında "Şuşa" sözündən ("Şuşa" sözü olan söz birləşməsindən) istifadə olunduqda, bu barədə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin razılığı barədə sənəd əlavə olunur.";

2.3. IV fəslin 2.1.1-ci yarımbəndinin "x)" abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda "i)" abzası əlavə edilsin:

"i) "coğrafi göstəricinin adında "Şuşa" sözündən ("Şuşa" sözü olan söz birləşməsindən) istifadə olunduqda, bu barədə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin razılığı barədə sənəd.".

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .- 2022.- 2 oktyabr.- S.5.